# MURADOV HİKMƏT OQTAY OĞLU



Muradov Hikmət Oqtay oğlu 23 yanvar 1969-cu ildə Bakı şəhərində doğulmuşdur. O, 1976-cı ildə 190 saylı Bakı şəhər orta məktəbinə getmiş, 1986-cı ildə onuncu sinfi əla qiymətlərlə bitirmişdir. Həmin il Krasnokutsk Mülki Aviasiya Məktəbinə daxil olmuş, 1991-ci ildə məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. Sonra Kiyev Ali Mülki Aviasiya İnstitutunun qiyabi şöbəsini bitirmişdir. O, təyinatla Yevlax hava yollarında 2-ci pilot kimi fəaliyyətə başlayır. Hikmət Muradov AN-2 təyyarəsi ilə dəfələrlə Dağlıq Qarabağa uçuşlar etmiş, Xocalıya aviasiya hissələrinin daşınmasında və müxtəlif ləvazimatların vaxtında çatdırılmasında böyük xidmətlər göstərmişdir. 1991-ci il 29 oktyabrda Xocalı rayonunun Xanabad kəndi ərazisində onun idarə etdiyi AN-2 təyyarəsi şiddətli raket atəşinə tuturlar. H. Muradov ekipajı və sərnişinləri xilas etmək üçün təyyarəni təhlükəsiz yerə çatdırmağa çalışsa da, faciədən qaçmaq mümkün olmur, bütün heyət üzvləri ilə birlikdə qəhrəmancasına həlak olur. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 saylı fərmanı ilə Muradov Hikmət Oqtay oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Vaxtilə oxuduğu Bakı şəhəri 190 saylı orta məktəbdə barelyefi vurulmuşdur.